# KÜRD DÎPLOMAT

**KÜRD xalqı mübariz və qəhrəman xalqdır**
H.Əliyev

www. Diplomata-kurdi.com

№ 10 (254) 10-16 Mart, Adar, sal 2014
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
**Rojnama heftename civakî û sîyasî**

Qiymәti: 40 qәpik
Hêjaye:


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2

**İlham Əliyev paytaxtda inşası davam etdirilən bir sıra yol qovşaqlarında və yol ötürücülərində tikinti işlərinin gedişi ilə tanış olmuşdur**


Səh. 8

**Barzanî: Em deyindarê fedakarî û keda jinan in**


Səh. 10

**Casûsê Sovyetê Sûdaplatov: ”Barzanî siyasetvanekî jêhatî û qumandarekî bi tecrube bû”**


Səh.4

**ŞOK! ŞOK! ŞOK! Öcalan TBMM-ə gedir!**


Səh.15

**"Анфаль": признание как средство защиты**


Səh.8

**Dizeyî: Şandina mûçe ne sedeqeya Bexdayê ye**


Səh.9

**Serokwezîr pêşwaziya sefîrê Koreya Başûr kir**

**К годовщине Мартовского восстания** Səh. 15

**1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu** Səh. 6

**Hewlêr ile Bağdat arasında ipler geriliyor** Səh. 12

**KÜRDÜSTAN BÖLGƏSİNİN PREZİDENTİ CƏNAB MƏSUD BARZANİ, KONFEDERALİZM İN ELAN EDİLMƏSİ HAZIRLIĞINI GÖRÜR** Səh. 3

**"Azərbaycanlılar və kürdlər qardaş xalq, bir ailədir" - GİZLİ TARİX** Səh. 5

**Heta niha ji 182.000 an, tenê termên 2250 kesên enfalkirî hatine dîtin** Səh. 8


Səh. 7

**Kürd Şifahi xalq ədəbiyyatı**


Səh. 11

**Kürdistan'da AKP'yi sıfırlayalım**


Səh. 14

**Îro salvegera koça Mihemed Şêxo ye**


Səh.12

**Zana: HDP'ye verilecek oy çözümedir**

## İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksində aparılacaq əsaslı təmir və yenidənqurma işlərinin layihəsi ilə tanış olmuşdur

Prezident İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksində aparılacaq əsaslı təmir və yenidənqurma işlərinin layihəsi ilə tanış olmuşdur.

Azərbaycanda gedən sürətli iqtisadi inkişaf prosesləri ölkə həyatının bütün sahələrinin dinamik şəkildə yenidən qurulması üçün əlverişli şərait yaradır. İqtisadi inkişaf tempinə görə sürətlə inkişaf edən ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxtda və regionlarda bütün sahələrdə ən müasir infrastrukturun yaradılmasına, yeni-yeni obyektlərin inşa olunmasına, mövcud komplekslərin isə əsaslı şəkildə yenidən qurulmasına böyük önəm verilir. Azərbaycanda bütün sahələr kimi, idmanın inkişaf etdirilməsi də prioritet sahələrdən biri kimi dövlətin daim diqqət mərkəzindədir. Dünyada idman dövləti kimi tanınan ölkəmizdə ən müasir standartlara cavab verən yeni idman komplekslərinin və müasir infrastrukturun yaradılması istiqamətində ardıcıl işlər



görülür. 2015-ci ildə ilk dəfə Bakıda keçiriləcək birinci Avropa Oyunlarına ciddi şəkildə hazırlaşan ölkəmizdə mükəmməl infrastruktur obyektlərinin inşası ilə yanaşı, mövcud idman komplekslərinin əsaslı şəkildə yenidən qurulması işləri də diqqət mərkəzindədir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Heydər Əliyev adına İdman-Konsert Kompleksinin ən müasir standartlara uyğun şəkildə yenidən qurulması layihəsinin icrasına başlanılmışdır. Dövlətimizin başçısı bu idman-konsert qurğusunda görüləcək işlərlə tanış olmaq üçün Kompleksə gəldi. Gənclər və idman naziri Azad Rəhimov Prezident İlham Əliyevə görüləcək işlərlə bağlı məlumat verdi. Dövlətimizin başçısı Kompleksə yanaşı, ətraf ərazilərdə abadlıq işlərinin aparılması ilə bağlı tapşırıqlar verdi. Sonra Prezident İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksinin arenasında, müxtəlif məşq zallarında və binanın fasadında aparılacaq təmir və yenidənqurma işlərinin layihəsi ilə tanış oldu. Bildirildi ki, Kompleksin bütün sahələrində, o cümlədən əsas və məşq korpuslarında, müxtəlif idman zallarında əsaslı təmir və bərpa işlərinə başlanılması üçün hazırlıq işləri yeni layihəyə uyğun olaraq artıq başa çatdırılmışdır. Kompleksdə yeni işıqlandırma, yanğından mühafizə və təhlükəsizlik, eyni zamanda, videomüşahidə və xəbərdarlıq sistemlərinin və müasir liftlərin quraşdırılması üçün işlər davam etdirilir. Kompleks yeni və sürətli internet şəbəkəsinə qoşulacaqdır. Binada ən müasir tələblərə cavab verən havalandırma sistemi artıq quraşdırılmışdır. Dövlətimizin başçısı təmir və yenidənqurma işlərinin aparılacağı ayrı-ayrı sahələri gəzdi, işlərin yüksək keyfiyyətlə görülməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.

Sonra Prezident İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksinin yanındakı parka gəldi. Dövlətimizin başçısı parkın yenidən qurulması, burada abadlıq və quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı da göstərişlər verdi.

## İlham Əliyev paytaxtda inşası davam etdirilən bir sıra yol qovşaqlarında və yol ötürücülərində tikinti işlərinin gedişi ilə tanış olmuşdur

Prezident İlham Əliyev paytaxt Bakıda inşası davam etdirilən bir sıra yol qovşaqlarında və yol ötürücülərində tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Son illər paytaxtda və regionlarda yol infrastrukturunun yaradılması ilə bağlı mühüm tədbirlər görülür. Çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, beynəlxalq standartlar səviyyəsində avtomobil yolları salınır. Bütün bu işlər “Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006-2015-ci illər üzrə Dövlət Proqramı”na uyğun olaraq görülür. Bu çərçivədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir. Prezident İlham Əliyevin Sərəncamı ilə Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə işlər də ardıcıl olaraq davam etdirilir. Yeni yol qovşaqlarının, körpülərin, yeraltı və yerüstü keçidlərin inşası Bakıda tıxac probleminin aradan qaldırmasına və əhalinin rahatlığının təmin edilməsinə yönəldilmişdir. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin də göstəricisidir. İndi ölkədə həyata keçirilən nəhəng infrastruktur layihələri belə bir reallığı da ortaya qoyur ki, son illərdə qazanılan nailiyyətlər Azərbaycanın potensialını tam üzə çıxarmaqla yanaşı, ölkəmizin gələcəyinə hesablanan addımların da düzgün istiqamətdə atıldığını təsdiqləyir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən, salınır. Layihəyə əsasən burada müxtəlif səviyyəli 5 yol qovşağı, 4 yerüstü və 2 yeraltı piyada keçidi də inşa olunur. Ziya Bünyadov prospektinin Müzəffər Nərimanov



paytaxtın yol-nəqliyyat infrastrukturunun daha müasir səviyyəyə çatdırılması istiqamətində məqsədyönlü və mühüm tədbirlər sırasına yeniləri də əlavə edilir. Prezident İlham Əliyev əvvəlcə paytaxtın Ziya Bünyadov prospektinin Müzəffər Nərimanov küçəsi ilə kəsişməsində yol ötürücüsünün tikintisi ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə Tədbirlər Planına uyğun olaraq, Ziya Bünyadov prospektinin yenidən qurulması layihəsinə görə 10 kilometrə yaxın uzunluğu olan 10 cərgəli avtomobil yolu ən müasir tələblər səviyyəsində küçəsi ilə kəsişməsində birinci yol qovşağı tuneldən və tunel üzərində nəqliyyat vasitələrinin dairəvi hərəkətini və geriyə dönmələrini təmin edən yollardan ibarətdir. Tunelin ümumi uzunluğu 780, qapalı hissəsinin uzunluğu isə 300 metrdir. Altızolaqlı yolun eni 27 metrə yaxındır. Tunel nəqliyyat vasitələrinin Ziya Bünyadov prospekti boyunca Böyükşor və 20 Yanvar dairələri istiqamətində maneəsiz, intensiv hərəkətini təmin edəcəkdir. Tunelin üstündə inşa olunmuş avtomobil yolları isə nəqliyyat vasitələrinin dairəvi, geriyə dönmə, Müzəffər Nərimanov küçəsi ilə Heydər Əliyev prospekti istiqamətinə və əksinə hərəkətini təmin edəcəkdir. Yenidən qurulmuş Müzəffər Nərimanov küçəsi üzrə dördzolaqlı yolun ümumi uzunluğu 1740, eni 19 metrdir.

X X X

Sonra Prezident İlham Əliyev Ziya Bünyadov prospektinin Əhməd Rəcəbli küçəsi ilə kəsişməsində inşa olunan müxtəlif səviyyəli yol qovşağının yerləşdiyi əraziyə gəldi. Burada görülən işlər barədə də dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, yol qovşağının giriş-çıxışlarla birlikdə uzunluğu 600 metrdir. 328 metr uzunluğunda olan körpü iki istiqamətdə altızolaqlıdır. Körpünün yaxınlığında piyadaların hərəkətini asanlaşdırmaq məqsədilə yerüstü keçid də inşa olunmuşdur.

Qeyd edildi ki, şəhərin bu istiqamətində mövcud yol ensiz olduğu üçün hərəkətin intensivliyinə əngəl törədir və tıxaclara səbəb olurdu. Yeni yol və yol boyu inşa edilən körpülər hazır olduqdan sonra bu istiqamətdə avtomobillərin rahat və maneəsiz hərəkətini təmin edəcək, paytaxtın müxtəlif mikrorayonları, xüsusilə də Binəqədi rayonu istiqamətində nəqliyyatın intensiv hərəkətinə şərait yaradacaqdır.

X X X

Daha sonra Prezident İlham Əliyev Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə, Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində - “Xutor” dairəsində inşa olunan müxtəlif səviyyəli yol qovşağında tikinti işlərinin gedişi ilə tanış oldu.

Yol qovşağının texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verildi. Qovşaqda üç tunel, bir körpü, iki yeraltı piyada keçidinin inşa olunduğu qeyd edildi. Bildirildi ki, buradakı körpünün uzunluğu 630 metr olacaqdır. Layihəyə əsasən, qovşaqda yan və tunelüstü yollar inşa edilir. Bu qovşağın istifadəyə verilməsi ilə Ziya Bünyadov prospektindən hərəkət edən avtomobillər 20 Yanvar dairəsi və Qələbə meydanı istiqamətinə maneəsiz hərəkət edə biləcəklər. Bundan başqa, qovşaq 20 Yanvar dairəsi və Qələbə meydanından gələn nəqliyyat vasitələrinin əks istiqamətə - Ziya Bünyadov prospektinə çıxışını təmin edəcəkdir. Qovşaqdakı körpüdən isə avtomobillər Əbdülvahab Salamzadə küçəsindən Rəşid Məmmədov küçəsinə və əks istiqamətə rahat hərəkət edə biləcəkdir. İnşası davam etdirilən yol qovşaqlarının və yol ötürücülərinin hamısında bütün kommunikasiya sistemləri, o cümlədən su, istilik, qaz, rabitə və yağıntı sularını axıdan xətlər dəyişdirilmiş, yeni drenaj sistemi yaradılmışdır. Yeni nəhəng yol qurğusunun istifadəyə verilməsi nəqliyyat sıxlığının aradan qaldırılması istiqamətində paytaxtda aparılan mühüm işlərin davamlı xarakter aldığını bir daha təsdiqləyir. Belə layihələrin uğurla icra olunması bir daha sübut edir ki, ölkədə aparılan sosialyönümlü tədbirlərdə başlıca məqsəd əhalinin rahatlığını təmin etməkdir. İnşaat işlərinin gedişi ilə yaxından tanış olan dövlətimizin başçısı müvafiq göstərişlərini verdi.

## İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibini qəbul etmişdir

Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədənini qəbul etmişdir. Dövlət başçısı İyad bin Amin Mədənini İslam Əməkdaşlıq Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. İyad bin Amin Mədəninin yeni vəzifəyə seçildikdən sonra ölkəmizə səfər etməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bunu əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni baş katib seçilərkən Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Görüşdə ölkəmiz ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın daha da genişləndirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı, təşkilata üzv olan ölkələrin iqtisadi, elm, təhsil, mədəniyyət və digər sahələrdə sıx əməkdaşlığının əhəmiyyəti qeyd olundu, beynəlxalq aləmdə baş verən proseslərlə bağlı islam ölkələrinin vahid mövqedən çıxış etmələrinin önəmi vurğulandı.



## KÜRDÜSTAN BÖLGƏSİNİN PREZİDENTİ CƏNAB MƏSUD BARZANİ, KONFEDERALİZM İN ELAN EDİLMƏSİ HAZİRLIĞINI GÖRÜR

Kürdüstanın "Rojeva Kurd " saitinin verdiyi məlumata əsasən, Kürdüstan



bölgəsinin Prezidenti Mesud Barzani konfederasiya elan edilməsi üçün hazırlıqlara başladığını və bu məsələ ilə bağlı məlumatı İraq mərkəzi hokumətinə çatdırdığını bildirmişdir. Mesud Barzani cənabları konfederalizm məsələsini, Kürdüstanın İslam Birliyi Təşkilatının toplantısında da gündəmə qoyub və məsələ olumlu qarşılanıb. Kürdüstanın İslam Birliyi Təşkilatının sabiq Millət Vəkili Xəlil İbrahim "Bas News" agentliyinə bildirib ki, Məsud Barzani Kürdüstanın İslam Birliyi Təşkilatının toplantısında təşkilat nümayəndələrinə Müstəqil Kürdüstanın elan edilməsi məsələsinin gündəmə gəlməsi məsələsinə baxılmasını və bu məsələ bütün siyasi partiyalar tərəfindən dəyərləndirilməsini istəmişdir. O, Mərkəzi hökümətə konfederalizm haqqında məlumat verdiyini bildirərək siyasi təşkilat və partiyaları məlumatlandırmışdı. Təşkilat iştirakçıları konfederalizmdənsə Kürdüstanın Müstəqilliyinin elan etməsinin daha düzgün hesab etdiklərini bildirmişlər.

Xəlil İbrahim sonda onuda bildirmisdir ki, konfederalizm iki ayrı ayrı dövlətlər arasında yaradıla bilər, ona görədə Kürdüstan Höküməti hazırlıqlarını apararaq Müstəqilli Kürdüstan elan etməlidir.

## Elmar Məmmədyarov sabah Parisdə həmsədrlərlə ilə görüşəcək



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov martın 10-da Fransanın paytaxtı Parisdə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşəcək. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən Publika.az-a verilən məlumata görə, E.Məmmədyarov həmsədrlərlə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə aparılan danışıqların gedişini müzakirə edəcək. Xatırladaq ki, Minsk qrupunun həmsədrləri martın 3-də Parisdə Ermənistanın XİN rəhbəri Edvard Nalbandyanla danışıqlar aparıblar.

## Konqresmen Bil Şuster Xocalı faciəsi ilə bağlı bəyanat verib



Konqresmen Bil Şuster Xocalı faciəsinin 22-ci ildönümü münasibətilə ABŞ Konqresində bəyanat verib.

Azərbaycanın ABŞ-dakı səfirliyindən Trend-ə verilən məlumata görə, 5 mart 2014-cü il tarixində ABŞ Konqresindəki Azərbaycan üzrə İşçi Qrupunun həmsədri konqresmen B.Şuster Xocalı faciəsinin 22-ci ildönümü münasibətilə bəyanat verib.

Konqresmen Xocalı faciəsinin qurbanlarını yad edib və bu qətliamın miqyasının aparıcı beynəlxalq media qurumlarının hesabatlarında öz əksini tapdığını qeyd edib. B.Şuster bəyanatında Azərbaycanın ABŞ-ın güclü strateji müttəfiqi olduğunu xüsusi vurğulayıb.

## Fətullah Gülən niyə evlənməyib? - SƏBƏB

Türkiyənin tanınmış dini xadimi, uzun illərdir ABŞ-ın Pensilvaniya ştatında yaşayan Fətullah Gülən şəxsi həyatı ilə bağlı marağa səbəb olan suallara cavab verib. Publika.Az milliyet.com.tr-ə istindən bildirir ki, Gülən bir söhbət zamanı nədən heç evlənmədiyini və nədən heç



övlad sahibi olmadığından danışıb. Xəbərdə deyilir ki, bu məsələ Türkiyənin baş naziri Rəcəb Təyyib Ərdoğanın Güləni uşaqları olmaması ilə bağlı qınayandan sonra aktuallaşıb. Gülən isə niyə ailə qurmamasını belə izah edib: "Əslində özümə görə narahatlığım olmayıb. Çünki məni dünyaya bağlayacaq heç bir şeyim yoxdur. Bunları desəm bir az iddialı səslənər. Mən abidə-daş kimiyəm, bir sevdiyim xanım, uşağım olmayıb. Mən bunları mənsub olduğum, könül verdiyim mübarizəmə, düşüncəmə həmişə yad saymışam".

## İraqın baş nazirindən Səudiyyə Ərəbistanı və Qətərə sərt ittihamlar

İraqın baş naziri Nuri əl-Maliki bildirib ki, Səudiyyə Ərəbistanı və Qətər birləşrəkdən İraq dövlətində vəziyyəti pozur. Trend RİA Novosti agentliyinə istinadən bu barədə Frans Press agentliyi şənbə günü məlumat verir.

"Onlar (Səudiyyə Ərəbistanı və Qətər) Suriya vasitəsilə və birbaşa İraqa hücum və müharibə elan ediblər. Bu iki dövlət digərlərindən əvvəl İraqda konfessiyalararası və terror, həmçinin təhlükəsizlik böhrana görə məsuliyyət daşıyırlar" - baş nazir Fransanın France24 telekanalına müsahibəsində deyib. Şiə müsəl-



manı olan əl-Malikinin sözlərinə görə, İraqda sünni azlığın incidilməsində ona qarşı ittihamlar Səudiyyə Ərəbistanı və Qətər tərəfindən təhrik olunan fanatiklərdən irəli gəlir.İraqın baş nazirinin fikrincə, Ər-Riyad və Doha İraqda yaraqlılara siyasi, maliyyə və informasiya dəstəyi göstərir, habelə onları silahla təmin edir.

## Eşton Ruhani ilə görüşdü

İranda rəsmi səfərdə olan Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Ketrin Eşton bu gün Tehranda İran Prezidenti Həsən Ruhani ilə görüşüb. ANS PRESS-in məlumatına görə, görüşün təfərrüatları hələ mətbuata açıqlanmayıb. Aİ-nın rəsmisi eləcə də ölkə parlamentinin sədri Əli Laricani ilə görüşərək, birlikdə mətbuat konfransı keçirib. İranda üçgünlük səfərdə olan K.Eşton ilk olaraq İranın xarici işlər naziri Məhəmməd Cavad Zəriflə görüşmüşdü.



Aİ diplomatiyasının rəhbəri İranın XİN rəhbəri ilə keçirdiyi birgə mətbuat konfransında, İran və "altılıq" (beynəlxalq vasitəçilər) arasında müvəqqəti razılaşmanın vacibliyini vurğulayaraq deyib: "Yekun hərtərəfli sazişin imzalanması isə daha vacibdir, lakin buna nail olmaq çətindir və uğur qazanacağımıza heç bir zəmanət yoxdur". Xatırladaq ki, 2013-cü ilin noyabrında Tehran və "altılıq" ölkəyə qarşı sanksiya rejiminin yüngülləşdirilməsi müqabilində İranın nüvə fəaliyyətinin qismən dayandırılması barədə razılığa gəliblər. Sazişin icrasına tərəflər yanvarın 20-də başlayıblar. Tərəflərin İranın nüvə proqramı üzrə hərtərəfli sazişin müzakirəsinə başlayacağı gözlənilir.

## Obama anti-Rusiya konfransı çağırır, Con Kerri Sergey Lavrovu axtarır

ABŞ-ın dövlət katibi Con Kerri Rusiyanın xarici işlər naziri Sergey Lavrovla əlaqə saxlayıb. O, Krımın zəbtinin "diplomatik münasibətlərdə mümkün imkanların qapadacağını" bildirib. Kerrinin Lavrovla danışığı əlavə rus qoşunlarının Krıma yeridilməsi xəbərlərinin yayılmasında sonra baş verib. "Reuters" agentliyi xəbər verir ki, martın 8-də Rusiyaya məxsus hərbi ordu texnikası Simferopola daxil olur. Prezident Barak Obama Ukrayna böhranını çözmək üçün Avropa liderləri ilə əlaqə saxlayıb. O, Litva, Latviya və



Estoniya prezindentlərini konfrans keçirməyə çağırıb.

## Türkiyənin XİN rəhbəri BMT-nin baş katibi ilə görüşəcək

Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu martın 11-də



BMT-nin baş katibi Pan Gi Munla görüşmək üçün Nyu-Yorka gedəcək. Bu barədə Trend "Anadolu" agentliyinə istinadən şənbə günü məlumat verir. Məlumata görə, tərəflər Ukraynadakı vəziyyəti, Kipr problemini, həmçinin Türkiyənin BMT-nin Təhlükəsizlik Şurasının 2015-ci ildən 2016-ci ilədək dövründə qeyri-daimi üzvü statusunun qazanılmasını müzakirə edəcəklər. Türkiyə XİN-in məlumatına görə, Davudoğlu xüsusi qonaq qismində Karib birliyi (KARİKOM) dövlət və hökumət başçılarının sammitində iştirak edəcək. Sammitdə nazir Karib hövzəsi ölkələri ilə siyasi və iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində çıxış edəcək.

## İlker Başbuğ üçün gözlənilməz plan

Publika.az türk mediasına istinadən xəbər verir ki, İlker Başbuğun həbsdən çıxmasının ardından icmalçılar maraqlı bir iddianı diqqət mərkəzinə gəirib.Başbuğ, Köşk üçün namizədmi olacaq? Həmin yazıların qısa məzmununu təqdim edirik.

"Posta" qəzetinin icmalşısı Candaş Tolqa Işığın İlker Başbuğ yazısındakı o hissə belədir:




İlker Paşa da həbsxanadan çıxınca istər istəməz ağıllara o sual gəlir:"Görəsən İlker Başbuğ respublika prezidenti olarmı?"

İlker Paşa da pambıq kimi olub Gülən icmasından özgə hər kəsə 'sevgi' dolu mesajlar verməklə bir konsensus olarmı? Siyasi partiyalar, bu yay keçiriləcək preziden seçkilərində İlker Başbuğ adı üstündə razılaşma əldə edə bilərmi? Müəllif bunun mümkün olmadığını iddia edib. Əngin Ardıç, "Ayy, Çankayaya yenəmi paşa?" başlıqlı yazısında Başbuğu dəstəkləyənlərin həbsxanadan çıxar çıxmaz bu ifadəni dilə gətirdiklərini yazıb. Yalçın Bayer isə rubrikasında yazıb ki, o, yaxında keçiriləcək prezidentlik seçkisində namizəd olmalıdır. Bu, CHP-nin, MHP-nin ən böyük vəzifəsi olmalı və də onu razı salaraq namizəd edərək dəstəkləməlidirlər.

## Azərbaycandakı Ukrayna diasporu Rusiyanın təcavüzünü pislədi

Azərbaycandakı Ukrayna diasporu Rusiyanın müstəqil Ukrayna dövlətinə qarşı



hərbi təcavüzünü pisləyən bəyanat yayıb. Ukraynanın Bakıdakı səfirliyindən APA-ya verilən məlumata görə, Azərbaycanda yaşayan ukraynalılar Rusiyanın Ukraynaya qarşı addımlarını açıq hərbi təcavüz kimi qiymətləndiriblər. "Biz Ukraynadakı bacı və qardaşlarımızla həmrəyik. Rusiya hökumətini Ukrayna xalqına qarşı əsassız təcavüzü dayandırmağa çağırırıq. Kremlin siyasəti qardaş müharibəsinə başlamaq cəhdidir", - deyə o vurğulayıb. Bəyanatı "Azərbaycan-Ukrayna iqtisadi əlaqələrə dəstək" ictimai birliyinin sədri Yuri Osadçenko, Azərbaycanın Ukrayna İcması Şurasının sədri Andrey Zariçnıy və veteranlar şurasının sədri Leonid Perevetski imzalayıblar.

## ATƏT müşahidəçiləri Krıma buraxılmadılar




ATƏT-dən olan hərbi müşahidəçilər Krım Muxtar Respublikasına buraxılmayıb. APA-nın "İnterfaks-Ukrayna"ya istinadən verdiyi məlumata görə, bunu Ukrayna XİN-in informasiya siyasəti departamentinin direktoru Yevgeni Perebeynis bəyan edib. Onun sözlərinə görə, bu gün ATƏT missiyası yenidən Krıma getməyə cəhd edib, lakin blokpostlarda dayanan silahlı şəxslər buna mane olublar. Naməlum silahlı şəxslər ATƏT missiyasına daxil olan müşahidəçilərə bildiriblər ki, muxtar respublika ərazisi ilə hərəkət etmək üçün Krımın yeni rəhbərliyinin icazəsi lazımdır. Qeyd edək ki, ATƏT-in verifikasiya missiyası martın 5-dən Ukraynadadır. Missiyaya 21 ölkədən 40 müşahidəçi daxildir. Onların məqsədi Krımda yerləşən Ukrayna və Rusiya hərbi obyektlərinə baş çəkməkdir.

# ŞOK! ŞOK! ŞOK! Öcalan TBMM-ə gedir!



Türkiyə Böyük Millət Məclisinə təqdim edilən " demokratikləşmə paketi" çox müzakirə ediləcək. Paketdən çıxan sürpriz tənzimləməyə görə terror hökümlüsü Öcalan başda olmaq üzrə hökmlü statusundakılar və dağdan enəcək PKK Iılar siyasi partiyalara üzv ola biləcəklər...

"Milliyyət" qəzetinin yazarı Öndər Yılmazın xəbərinə görə, hökumətin bir müddət əvvəl açıqladığı, həll prosesi baxımından böyük əhəmiyyət daşıdığı ifadə edilən ancaq qeyri-kafi hesab edilərək tənqid olunan, "demokratikləşmə paketi" dünən Türkiyə Böyük Millət Məclisinə təqdim edildi. Daxili İşlər naziri Muammer Gülər isə; Abdullah Öcalana siyasət yolunun açılacağı mövzusunda etdiyi şərhdə belə bir vəziyyətin söz mövzusu olmadığını vurğuladı. TBMM Başçılığına təqdim edilən 17 maddəlik paketdə bu maddələr yer alır: Abdulla Öcalana SİYASƏT YOLU: Layihənin qüvvədən qaldırılan hökmlər hissəsində, İmralı Həbsxanasında məhbus olan Abdullah Öcalan və dağdan enməsi gözlənilən PKK-a Iılara siyasətlə məşğul olmaq yolu açılır. Siyasi Partiyalar Qanununun "siyasi partiyalara üzvlüyü" qadağan edən hökmlər arasından " terror hərəkətindən məhkum olma" meyarı qaldırılır. Beləcə Öcalan və ya dağdan enən PKK-a Iılar BDP və ya HDP başda olmaq üzrə istədikləri partiyaya üzv olaraq siyasətlə məşğul ola biləcəklər. Paketli, "ictimai xidmətlərindən qadağanlı olanların", yəni üz qızardan cinayətlər, qaçaqçılıq, tenderləri fəsad və ya dövlət sirlərini aşkar etmə günahlarından məhkum olanlar, təksirli cinayətlər xaric 5 il və ya daha çox həbs cəzasına məhkum olanların, dövlətə qarşı işlənən cinayətlərdən məhkum olanların və terror hərəkətindən məhkum olanların siyasi partiya üzvlüyü qadağanı qalxacaq.

Rüşvətçi DİGƏR PARTİYALAR İstifadəçi OLA BİLECEK: Eyni maddənin tənzimləməyə görə, artıq, "Cəmiyyət xidmətindən yasaklılar, sadə və xüsusiyyətli tərəf, işləyən, rüşvət, oğurluq, fırıldaqçılıq, sxtaçılıq, inancı sui-istifadə etmə , dolanlı iflas kimi üz qızardan cinayətlər ilə işlədilən və istehlak qaçaqçılığı xaricində qalan qaçaqçılıq cinayətləri, rəsmi tender və alış satımlara fəsad qarışdırma və ya dövlət sirlərini aşkar etmə günahlarından biriylə məhkum olanlar, təksirkar cinayətlər xaric 5 il ağır həbs və ya 5 il və daha çox həbs cəzasına məhkum olanlar " da siyasi partiyalara üzv ola biləcəklər. MƏKTƏB və iş yerini, NAMAZA maneə törədənlərin həbsi: TCK'nın "inanc , düşüncə və qənaət azadlığını " tənzimləyən 115-ci maddəsinə edilən əlavə ilə məktəb və iş yerlərində namaz qılma başda olmaq üzrə dini inancın yerinə yetirilməsinin önü açılır. Maddəyə edilən əlavə ilə , "dini inancını gərəyinin yerinə yetirilməsinin , təhdid istifadə ya da hüquqazidd başqa bir davranışla " maneə 1 ildən 3-ilə qədər həbs cəzasıyla mühakimə olunacaq. Çadraya maneə törədənlərə həbs : TCK'nın " Təhsil və Təhsil Haqqını " tənzimləyən 112. maddəsində edilən dəyişikliklə; hər cür təhsil və təhsil fəaliyyətlərinə , adamın təhsil və tədris haqqını istifadə , tələbələr toplu oturduqları binalara girilməsi və onlara mane olanlara 2 ildən 5 ilə qədər həbs cəzası veriləcək. GEZİ-park nümayişçilərinə CEZA: Tasarıyla, Gezi Parkı, ODTÜ kimi reallaşdırılan hərəkətlərə istiqamətli cinayət tədbirləri də də alındı. Gəzinti Parkı və ODTÜ də olduğu kimi bir cəmiyyət təşkilatı tərəfindən icra edilən layihənin həyata keçirilməsi kimi fəaliyyətləri maneə törədənləri 2 ildən 5 ilə qədər həbs cəzası veriləcək. KÜRTÇE TƏBLİĞAT: Seçkilərdə Kürtçə təbliğat edilə bilər. həmsədrlik : Siyasi partiyalar artıq həmsədrlik sisteminə keçə biləcək. Həmsədrlər 2 nəfərdən çox olmayacaq. Bu günə qədər yalnız BDP bu sistemi tətbiq edirdi. Diyarlarda təşkilat qurulma zəruriliyi qalxacaq. Beləcə yeni qurulan partiyaların seçkilərə girməsi asanlaşacaq. YÜZDƏ 3 SƏS ALANA ƏN AZI 1 MİLYON TL YARDIM: Millət vəkili ümumi seçkisində ümumi etibarlı səslərin yüzdə üçündən çoxunu ərazi siyasi partiyalara Xəzinə köməyi ediləcək . Bu kömək 1 milyon TLdən az ola bilməyəcək. Hələ də yüzdə 7-nin üzərində səs alan partiyalara Xəzinə köməyi edilir. Ancaq BDP son ümumi seçkiyə müstəqil namizədlərlə qatıldığı üçün yenə bu Xəzinə köməyindən yararlanamayacak.

Mitinqdə YERİ ORTAQ təyin olunacaq : Rayon və Qəsəbələrdə mitinq yeri və yolu artıq , TBMM-qrupu olan partiyaların Rayon və mahal nümayəndələri ilə ən çox üzvə sahib üç həmkarlar ittifaqı və cəmiyyət təşkilatı xüsusiyyətindəki peşə təşkilatları nümayəndələrinin görüşü alınaraq Rayon rəhbərləri, bölgə kaymakamları tərəfindən təyin olunacaq. Qüvvədə olan tənzimləməyə görə bu qərarı hələ də əyalətləri və kaymakamlıklar verir. HƏYATI mürəkkəbləşdirmək Meyyarları: Bölgə və mahalın böyüklüyü nəzərə alınaraq yığıncaq və nümayişlərin gedişi, yer və marşrutu təyin olunacaq. Ancaq düzənləmə heyəti ictimai asayişin və ümumi asayişi pozmayacaq və vətəndaşların gündəlik həyatını zorlaştırmayacak şəkildə təyin olunan yer və güzergahlarda birini seçim edə biləcək.

Yığıncaq və nümayiş üçün "gündəlik həyatı çətinləşdirməmək" meyarı getirilməsi xüsusilə Beyoğlu, Kadıköy, Kızılay kimi meydanlardaki hərəkətlərin hamısının qadağan edilməsinə yol aça biləcək. GÜNƏŞ batana qədər : Açıq hava mitinqlər artıq günəş batmadan əvvəl dağılacaq şəkildə, bağlı yerlərdə isə saat 24-ə qədər ediləcək . Beləcə bu qadağanı pozduğu səbəbiylə onlarla millət vəkilinin haqqında hüquqi ölçü götürüləcəyi ilə nəticələnəcək. Nümayişçilər FİŞLƏNƏCƏK: Bütün yığıncaq və nümayişlərdə iştirakçıların və natiqlərin səs və görüntüləri bəzi dairələr tərəfindən qeyd ediləcək. Əldə edilən qeyd və görünüşlər, şübhəlilərin və cinayət dəlillərinin təsbiti xaricində başqa bir məqsədlə kullanılamayacak.

Beləcə mitinqlərdə hadisə çıxaran və cinayət işləyənlərin təqibi asanlaşacaq. Ancaq bu tənzimləmə də hər cür yığıncaqda polisin açıq və ya gizli qeyd etməsinə gətirib çıxaracağı səbəbiylə tənqid olundu. MƏQSƏDİ xaricinə çıxarsa POLİS DAĞIDACAQ: Tənzimləmə heyəti mitinqi məqsədi xaricinə çıxdığı və ya nizam içində reallaşmasını qeyri-mümkün gördüyü təqdirdə dağılma qərarı alacaq və vəziyyəti dərhal səlahiyyətli polis rəhbərlinə bildirəcək. Yığıncağın qərarını hökumət komissarı deyil, siyasi partiyaların nümayəndələrinin də olduğu Düzenleme heyəti qərar verəcək. Tənzimləmə heyəti bu vəzifəsini yerinə yetirməməsi halında, vəziyyəti səlahiyyətli polis rəisi tərəfindən yuxarl rəis və ya kaymakamlara bildiriləcək və qərarı bu orqanlar verəcək. Qərar verilməsi halında dağıtma əməliyyatını polis reallaşdıracaq. XÜSUSİ Məktəblərdə Kürtçe təhsil: Xüsusi kurslar xaricində artıq Kurdcə başda olmaq üzrə fərqli dil və ləhcələri tədris edilə xüsusi məktəblər açılacaq. Bu təşkilatlarda təhsili və tədrisi ediləcək dil və ləhcələrə Nazirlər Kabineti qərar verəcək. ŞƏXSİYYƏT verməyən yanacaq: TCK-nin əlavə olunan yeni bir hökmlə; ictimai təşkilatlarında və ya cəmiyyət təşkilatı xüsusiyyətindəki peşə quruluşlarında verilən ya da ictimai orqanlarının verdiyi icazəyə söykənən xidmətlərdən yararlanılmasına mane olunması halında , fail haqqında 2 ildən 5 ilə qədər həbs cəzası veriləcək. Həyat tərzinə GÜVENCE :



Yenə TCK-nin İnanc , düşüncə və qənaət azadlığını təşkil maddəyə edilən əlavə ilə həyat tərzi zəmanət altına alınır. Din , düşüncə və ya qənaətlərindən qaynaqlanan həyat tərzinə bağlı seçimlərinə müdaxilə edən və ya bunları dəyişdirməyə zorlayanlar 1 ildən 3 ilə qədər həbs cəzası ilə cəzalandırılacaq. NİFRƏT günahına YETƏRSİZ CƏZA: Tasarıyla nifrət günahı TCK-ya girəcək. TCK-nin 122.-ci maddəsinin " Ayrı-seçkilik" başlığı , " Nifrət və ayrı-seçkilik" olaraq dəyişdirildi. Maddədəki "din , dil , məzhəb" meyarlarına " milliyyət " anlayışı da əlavə olunarkən , nifrət və ayrı-seçkilik günahına verilən 6 aydan 1 ilə qədər verilən həbs cəzası , 1 ildən 3 ilə qədər həbs olaraq yenidən təyin olundu. Layihə gözlənilənin əksinə irqi ya da milli səbəbiylə işlənən yaralama , öldürmə , təhqir kimi cinayətlərin də əlavə edilməsi mövzusunda tənzimləməni ehtiva etmir. Cinsi yönelimdeki kəslərə istiqamətli ayrı-seçkilik da paketə girmədi. TÜRKÇE OLMAYAN KÖY ADLARI : Qanunla bölgə idarəsinin kənd adlarının dəyişdirilməsini zəruri edən ifadə çıxarıldı. 1949-dakı tənzimləmənin qaldırılması Türkcə olmayan kənd adlarının dəyişdirilməsini maneə törədəcək. Ancaq daha əvvəl dəyişdirilən adlar üçün yeni bir tənzimləmə edilmədi. Fitrə və zəkat ictimai köməkləşməyə getməyəcək : Sosial Yardımlaşma və həmrəyliyi Təşviq Qanununun sosial Yardımlaşma və Həmrəylik Fondlarının gəlirlərindən təşkil maddəsindən hər cür fitrə , zəkat, qurban yardımları ilə bağlı hökm çıxarıldı. ŞAPKA VƏ ƏLİFBA CƏZASI QALIXDI: TCKP-nİn " Şapka və Türk Hərfləri " başlıqlı maddəsi qüvvədən düşəcək. Beləcə qadağan olmasına baxmayaraq tətbiqi tapılmayan şapka taxma zəruriliyi ilə əlifbada x , q , w kimi hərflərin istifadə edilməsini nəzərdə tutulan 2 aydan 6 aya qədər həbs cəzası qalxmış olacaq. Daxili İşlər Naziri Gülərə ŞƏRH Polis Akademiyası Beynəlxalq Terrorizm və Transmilli Cinayətlərin Araşdırma Mərkəzi (UTSAM) tərəfindən beşincisi təşkil edilən Beynəlxalq Terrorizm və Transmilli Cinayətlər Simpoziumu səbəbiylə Antalyaya gələn Daxili İşlər naziri Muammer Gülər, hava limanında jurnalistlərin suallarını cavabladı. Nazir Gülər demokratikləşmə Paketində partiyalara üzvlük üçün terrordan məhkum olmama şərtinin qaldırılacağı və bu sayədə Abdullah Öcalana siyasət yolunun açılacağı iddialarına bağlı bunları qeyd etdi: " Heç elə bir şey ola bilərmi hörmətli baş nazirimiz bunu 30 sentyabrdakı ifadəsində açıqladı. Belə bir şey əsla söz mövzusu deyil. Bunu heç ağılınızdan çıxarmayın. Onsuz da mətndə də belə bir şey yoxdur. Nazirlər KABİNETİ Türkiyə Böyük Millət Məclisinə təqdim etdiyi təklifdə belə bir şey yoxdur. Mən altına imza atdım." Daxili İşlər Naziri Muammer Gülər , nəqliyyatda həyata keçirilməsi düşünülən ' cib telefonuyla çək göndər' tətbiqinə dair də yol təhlükəsizliyiylə əlaqədar xalqın iştirakının çox əhəmiyyətli olduğunu söylədi . Nazir Gülər , "Madam plüralist , demokratik bir həyat nəzərdə tutulur. Mövcud vəziyyətdə yol müfettişleriyle əlaqədar bir sənəd tənzim edirik. Bununla əlaqədar yoldaşlarımız bir iş görür. Artıq texnologiya dəyişdi. Mütləq tutanaklarla , mütləq müəyyən bir məlumatla olmur. Onun üzərinə çalışırıq . Baxaq necə edəcəyik amma burada əhəmiyyətli olan fərqindəliyin yaradılması və qaydalara uyğun gəlmə mövzusunda davranış formasının inkişaf etdirilməsi "deyə danışdı.

**Odatv.com**

# "Azərbaycanlılar və kürdlər qardaş xalq, bir ailədir" - GİZLİ TARİX

İstedadlı tədqiqatçı Adıgözəl Məmmədovun Cənubi Azərbaycanda milli azadlıq hərəkatının məchullarına gün işığı tutan dəyərli araşdırmasının dərcini davam etdiririk. Tədqiaqtın mənbəşü-



naslar, iranşünaslar və ümumən Pişəvəri hərəkatı ilə maraqlanan hər kəs üçün maraqlı olacağını düşünürük.

**STALİN yoldaşa**

Martın 28-də Sovet Culfasında biz İran Azərbaycanı Milli hökumətinin rəhbərləri Pişəvəri, Şəbüstəri və doktor Cavidlə görüşdük. Sizin göstərişinizə müvafiq olaraq, biz yaranmış şəraiti onlara izah etdik və bu gün İran Azərbaycanında mövcud olan vəziyyətin saxlanmasında təkid etməməyi məsləhət gördük. Onlara Tehran hökuməti ilə bağlanacaq sazişdə bizim səfirin Qəvama ünvanlanmış 24 mart tarixli məktubunda irəli sürülən təklifləri əsas götürməyi tövsiyə etdik. 14 mart tarixində mən (M.C.Bağırov – A.M.) onlarla ilkin söhbət aparsam da, bizim son təkliflərimiz onlara çox ağır təsir bağışladı. Hər üçü bildirdi ki, onlar bizim məsləhətimizi qeyd-şərtsiz icraya qəbul edirlər, amma eyni zamanda aşağıdakıları bizim diqqətimizə çatdırmağı zəruri sayırlar:

İran Azərbaycan Demokrat Partiyası və Milli hökuməti mövcud olduqları dövr ərzində xalqa çoxlu vədlər vermişlər ki, onların da bir hissəsi artıq həyata keçirilib və indi elan olunmuş tədbirlərdən əl çəkilməsi onlara çox ağır gəlir. Onlara Qəvama inanmır, gözəl bilirlər ki, o, Azərbaycan xalqının hüquqları haqqında bütün vədlər və hətta yazılı sazişləri İran Konstitusiyasına istinadla tədricən ləğv edəcək, İran Konstitusiyası isə mahiyyətcə xalqın hüquqlarını deyil, mürtəce rejimi müdafiə edən sənəddir. Onlar İran silahlı qüvvələrindən qorxmurlar, amma əmindirlər ki, Qəvam irticaçı tacirləri, mülkədarları və ruhaniləri ələ almaqla, Azərbaycanda vətəndaş müharibəsi törədəcək, kürdlər və azərbaycanlıları millətlərarası qırğına sürükləyəcək. Bu işdə isə ona ilk növbədə ingilislər kömək edəcəklər.

Qəvam həqiqətən də İranda islahatlar keçirmək istəyirsə, onun üçün silahlı qüvvələri ilə birlikdə Milli hökumətdən etibarlı dayaq ola bilməz. Amma Qəvam çətin ki, bunu istəsin.

Deyilənlərə əsasən, Pişəvəri, Şəbüstəri və Cavid xahiş edirlər ki, bizim qonşular geri çəkildikcə onlara Şimali İranın digər vilayətlərindəki mütərəqqi demokratik elementlərlə əlaqəyə girmək və birgə səylərlə Tehran irticasına qarşı mübarizəyə başlamaq icazəsi verilsin. Onlar Sovet İttifaqının vasitəçiliyini Azərbaycan xalqının heç olmasa minimal hüquqlarının qorunub saxlanmasının yeganə real zəmanəti hesab edirlər.

Yaranmış ağır maliyyə vəziyyəti və öz silahlı qüvvələrinin formalaşdırılmasını tezliklə başa çatdırmaq zərurəti ilə əlaqədar olaraq onlar:

1. Azı 5 milyon tümən məbləğində pul yardım etməyi;

2. 100 yük avtomaşın ayırmağı

3. Sərhəd xidmətinin təşkil olunması və daxili qoşunların yaradılması üçün İran Azərbaycanına bir ay müddətinə Azərbaycan SSR Daxili İşlər Nazirliyi qoşunlarından 20 azərbaycanlı təlimatçı göndərməyi;

4. Milli ordunun ehtiyacları üçün müəyyən həcmdə dərman və tibb ləvazimatı ayırmağı xahiş edirlər;

Onların xahişinin təmin olunmasını zəruri hesab edirik.

Sizin göstərişlərinizi gözləyirik;

M.C.Bağırov

İ.İ.Maslennikov

29 mart 1946-cı il

1946-cı il aprelin 4-də Tehranda SSRİ ilə İran arasında birgə Sovet-İran



neft şirkətinin yaradılması haqqında saziş imzalandı və müqavilə bağlandı. Bu müqavilə İran Məclisi tərəfindən yeddi ay ərzində təsdiq edilməli idi.

Sovet qoşunları İrandan çıxarılandan sonra Cənubi Azərbaycanda və Şimali Kürdüstanda demokratik hərəkatı Moskvanın nəzarəti altında saxlamaq üçün M.C.Bağırov və İ.Maslennikov ABŞ-ın diplomatik "örtüyü" altında fəaliyyət göstərən xüsusi xidmətlərin köməyi ilə İran Kürdüstanının lideri Qazi Məhəmmədin söhbətinin yazısını tapıb Stalinə göndərə bildilər.

F № 1, siy. № 89, iş № 112

**STALİN yoldaşa**

İran Kürdüstanının rəhbəri Qazi Məhəmmədin ABŞ konsulu vəzifələrinin müvəqqəti icraçısı ilə 25 aprel 1946-cı il tarixdə Təbriz şəhərində olmuş söhbətinin qısa yazısını Sizə göndəririk.

**KONSUL: Rezaiyyədə (Urmiyada)** ABŞ vətəndaşı yaşayır. Mən Rezaiyyədə hər hansı bir çaxnaşma və ya qiyamın baş verdiyi halda onların qorunması üçün tədbirlər görməyi xahiş edirəm.

**QAZİ MƏHƏMMƏD:** Nə ABŞ vətəndaşları, nə də Rezaiyyə əhalisi üçün təhlükə yoxdur. Məni hətta Sizin hansısa xəyali təhlükə və ya bandalar haqqında sualınız təəccübləndirir. Rezaiyyədə azərbaycanlılar, aysorlar, ermənilər və kürdlər vahid, mehriban ailə kimi yaşayır və onların öz aralarında bölə biləcəyi bir şey yoxdur. Mən sizi əmin edə bilərəm ki, bizim sakitliyimizi, dostluğumuzu heç kəs poza bilməz və biz buna yol verərik.

**KONSUL:** Əvvəllər, müharibədən qabaq İran, Türkiyə və İraq kürdləri yaranan problemlərlə bağlı öz nümayəndələrini seçir və ABŞ-a göndərirdilər. Bəs nə üçün kürdlərin nümayəndələri indi ABŞ-a müraciət etmirlər?

**QAZİ MƏHƏMMƏD:** Biz, İran Kürdüstanının nümayəndələri yalnız öz əhalimiz haqqında düşünürük və Türkiyə, İraq və ya digər ölkələrdəki kürdlərlə işimiz yoxdur. Əgər Siz, ABŞ nümayəndəsi kimi, bizim ABŞ-a öz adamlarımızı göndərməyimizi istəyirsinizsə, biz bu dəvəti minnətdarlıqla qəbul edirik.

**KONSUL:** Siz əlbəttə, öz adamlarınızı ABŞ-a göndərə bilərsiniz, amma xüsusi məsələlərlə bağlı yox, çünki Kürdüstan dövlət deyil. Qəvamın nümayəndəsi azərbaycanlıların yanına gəldiyi kimi, Tehran hökuməti Sizinlə, kürdlərlə görüşmək üçün də nümayəndə göndərirmi?

**QAZİ MƏHƏMMƏD:** Biz Tehrandan heç bir nümayəndə gözləmirik və buna elə bir ehtiyac da yoxdur. Azərbaycanlılar və kürdlər bir xalq, bir ailədir və azərbaycanlılar gələn nümayəndə ilə istər özlərinin, istərsə də bizim məsələlərimiz barəsində danışa bilərlər.

**KONSUL:** Azərbaycan və Tehran nümayəndələri arasında danışıqların mümkün nəticəsi haqqında nə düşünürsünüz?

**QAZİ MƏHƏMMƏD:** Mən əminəm ki, danışıqların nəticəsi kifayət qədər uğurlu olacaq. Nə azərbaycanlılar, nə də Şimali Kürdüstanda yaşayan digər xalqlar böyük tələblərlə çıxış etmir və İranın bütövlüyünü pozmağa can atmırlar. Digər İran xalqları kimi, biz, kürdlər də hazırkı rejimdən razı qala bilmərik. Əgər Qəvam üzdə göstərdiyi kimi, həqiqətən də demokratiyanın tərəfdarıdırsa, onda o Azərbaycan xalqının qanuni tələblərinin təmin olunmasına razılıq verəcək.

**KONSUL:** Mən Sizin Amerika istehsalı olan "Cip" avtomobilində gəzməyinizə etiraz etmirəm. Kürdlər nəyi



üstün tuturlar, bu maşınları, yoxsa atları?

**QAZİ MƏHƏMMƏD:** Kürdlər nəyi daha üstün tuturlar, bu maşınları, yoxsa atları? Düşünürəm ki, bu Sizə də tam aydındır. Amerika texniki baxımdan zəngin ölkədir, amma indiyə kimi bizə bir maşın da olsun bağışlamayıb. Siz əvvəlcə bizə maşın verin, sonra soruşun.

**KONSUL:** Düşünürdüm ki, Siz maşınları bizim İranı tərk etmiş ordumuzdan alıbsınız.

**QAZİ MƏHƏMMƏD:** Maşınları biz Tehranda pulla almışıq. Biz kürdlər bilirik ki, Amerika Demokratik ölkədir. Özünüzü demokratiya tərəfdarı və kiçik xalqların müdafiəçisi elan etmiş İngiltərə də özünü demokratik ölkə adlandırır. Amma biz kürdlərə aydın deyil ki, nə üçün ingilislər Londondan yayımlanan verilişlərində bizim dünyada sülh üçün təhlükə törətdiyimizi, idarəetmə orqanlarımızın məhv edilməsini, yer üzündən silinməsini və s. bəyan edirlər. Özünü demokratik adlandıran ölkənin belə bir bəyanatını biz heç cür anlaya bilmirik. Bəlkə bunun səbəbini bizə Siz izah edəsiniz.

**KONSUL:** Biz amerikalılar xarici dövlətlərin radio verilişləri və bəyanatlarına izahat verə bilmərik. Bundan başqa, biz ümumiyyətlə, digər dövlətlərin işinə qarışa bilmərik.

**QAZI MƏHƏMMƏD:** Biz kürdlər Amerika, Sovet İttifaqı, İngiltərə kimi böyük dövlətlərin bizə diqqətini hiss etmirik. Biz Sizdən rəsmi olaraq bizə diqqət yetirməyi və bizə Amerika xalqı kimi azad və demokratik xalq olmaqla kömək göstərməyi xahiş edirik. Biz də amerikalılar kimi əsarətsiz yaşamaq istəyirik, biz öz xalqımızı mədəniyyətə doğru aparmaq və öz geriliyindən yaxa qurtarmış bir çox qabaqcıl xalqlar kimi yaşamaq istəyirik.

**KONSUL:** Əfsus ki, biz amerikalılar kürd xalqının həqiqi həyatı və vəziyyəti haqqında heç nə bilmirik. Etiraz etmirsinizsə, biz üç həftədən sonra konsul Tehrandan qayıtdıqdan sonra Sizin yanınıza gələrik.

**QAZİ MƏHƏMMƏD:** Biz heç kimə Kürdüstana gəlməyi qadağan etmirik. Siz orda olmaq istəyirsinizsə, buyurun, gəlin.

M.C.Bağırov

İ.İ.Maslennikov

27 aprel 1946-cı il

M.C.Bağırov və İ.İ.Maslenikovun Stalinə göndərdiyi məktub Sovet qoşunlarının İrandan çıxarılmasının nəticələrini əks etdirir. Əslində, Stalinin atdığı addıma qarşı çıxan M.C.Bağırov Azərbaycan xalqının İran hökuməti ilə təkbətək qalmasından gizli narazılığını bildirir. Bundan başqa, hədəf kimi Qəvamı seçərək, yazır ki, İranın hakimiyyət dairələrində Cənubi Azərbaycanda baş verən proseslərin qafqazlılar tərəfindən törədildiyi haqqında söhbətlər gəzir. O, bunun Stalin- Beriya-Bağırov üçlüyü olduğunu eyham vurur. O həmçinin, Qəvam və Stalin arasında razılaşmanın yenidən baxılmalı olduğuna da işarə edir. Bundan başqa M.C.Bağırov bu məktubda amerikalılar və ingilislərin Cənubi Azərbaycan və Şimali Kürdüstanda baş verən proseslər üzərində nəzarəti ələ almalarını xüsusi olaraq qeyd etməyə çalışıb.

F №1, siy. № 89, iş №112

**STALİN YOLDAŞA**

Bizim qoşunlarımızın İran Azərbaycanından çıxması əhali kütlələri, irticaçı elementlər və ingilispərəst dairələr arasında müxtəlif reaksiyalar doğurdu. Kəndlilər, fəhlələr, ziyalılar və bütün demokratik elementlər qoşunların İrandan çıxarılması ilə bağlı açıq-aydın təəssüf hissi keçirirdilər.



Bu əhali təbəqələri bizim qoşunlarımızın getdikdən sonra irticaçı qüvvələrin hücuma keçəcəyini əvvəlcədən görərək, Azərbaycanda demokratik hərəkatın gələcək taleyi ilə bağlı narahatlıq və həyəcan ifadə edirdilər. Amma əhali və demokratların rəhbər dairələri arasında çaşqınlıq və ruh düşkünlüyü müşahidə olunmamışdır. Bizim qarnizonlarımızın yerləşdiyi bütün Azərbaycan şəhərlərində Qızıl Ordu hissələrinin yola salınması təntənəli ümumxalq nümayişlərinə çevrilmişdir. İran Azərbaycanının Ərdəbil, Marağa, Rezaiyyə, Xoy və Zəncan kimi iri şəhərlərində hələ Qızıl Ordunun çıxması ərəfəsində mağazalar, idarələr və şəxsi evlər ucdantutma xalçalar, Sovet və İran bayraqları, Stalin yoldaşın, sovet xalqının rəhbərlərinin, Qızıl Ordu qəhrəmanları və sərkərdələrinin portretləri ilə bəzədilmişdi.

**(Ardı var)**

***Adıgözəl Məmmədov***

***http://publika.az/p/9146***

# 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu

**Əvvəli ötən saylarımızda**

